# *PEDAQOJİ ELMLƏR*

## Ailənin idarə olunması

**Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
**E-mail:** a.abbasov@arti.edu.az

**Rəyçilər:** p.ü.e.d., prof. H.Ə. Əlizadə,
p.ü.e.d., prof. H.H. Əhmədov

**Açar sözlər:** ailə, ailənin idarə olunması, ailə üzvləri, ailənin başçısı, ərin hüquq və vəzifələri, arvadın hüquq və vəzifələri, uşağın ailədə hüquq və vəzifələri

**Ключевые слова:** семья, управление семьи, члены семьи, глава семьи, права и обязанности мужа, права и обязанности жены, права и обязанности ребенка в семье

**Key words:** family, family management, family members, head of the family, rights and obligations of the husband, rights and obligations of the wife, rights and obligations of the child in the family

Ailə üzvlərinin necə gəldi özlərini aparmalarına yol verilə bilməz. Bu mənada tarixən Azərbaycan ailələrində qayda-qanun olmuşdur. Ailə hökmən idarə olunmalıdır. Nuklear ailə (yalnız gənc ər-arvad və uşaqlardan ibarət ailə) şəraitində bu rəhbərliyi kişi öz üzərinə götürür, qadın da onun yaxın köməkçisi olur. Yaxud hər ikisinin əlbir fəaliyyəti ilə ailə idarə olunur.

Mürəkkəb ailə (ata ailəsi və gənc ailənin birgə, bir mənzildə, bir evdə mövcud olduğu) şəraitində vəziyyət bir qədər başqa cür olur, bir sıra hallarda gənc ailə üçün problemlər yaranır. Bu tipli ailədə hər iki ailəni gənc ərin atası idarə edir. Ata rəhmətə gedibsə, yaxud ayrılıbsa, bu vəzifəni oğlan anası yerinə yetirir. Yaxud evin ağsaqqalı yoxdursa, ailədə idarəetməni gənc ər, evin təzə evlənmiş övladı həyata keçirir. İstənilən vəziyyətlərdə bir sıra hallarda bu iki ailənin üzvləri arasında söz-söhbət baş qaldırır.

Ailə necə idarə olunmalıdır? Bu zaman ər və arvadın vəzifələri nədən ibarət olmalıdır? Gəlin ailənin tarixinə nəzər salaq.

Nəsirəddin Tusinin qənaətincə, “kişi ilə arvad arasında kəbin kəsildikdən və nikah qanunlaşdırıldıqdan sonra arvad saxlamaqda ər üç üsuldan istifadə etməlidir: birinci - *zəhm,* ikinci - *kəramət*, üçüncü - *baş qarışdırmaq*” (1).

Daha sonra Tusi deyilənlərə aydınlıq gətirir: “*Zəhm* ona deyərlər ki, ər lap birinci gündən arvadının gözünün odunu ala, elə edə ki, onun (*ərinin - A.A*) əmrlərini yerinə yetirməkdə, göstərişlərinə əməl etməkdə arvad heç bir ehmallığa yol verməsin. Bu, ailə dolandırmağın (*ailəni idarə etməyin - A.A.*) ən böyük şərtidir. Bu şərt balaca pozulsa, qadında dikbaşlıq meyilləri güclənər, özbaşınalıq qapıları onun üzünə açılar, bununla kifayətlənməyib əri özünə tabe etməyə çalışar, şıltaqlıqlarını yerinə yetirməyə məcbur edər, əlində oyuncağa çevirər...

*Kəramət* ona deyərlər ki, arvadın məhəbbət və şəfəqqətini artıran şeyləri ondan əsirgəməyəsən. O bunları itirə biləcəyindən qorxaraq, ev işlərinə diqqətini artırar, ərinin sözünə baxıb hayına qalar və beləliklə, ailədə mehribanlıq və qayda-qanun olar.

*Başını qarışdırmaq* ona deyilir ki, qadın həmişə evlə, onu nizama salmaq, avadanlığın hayına qalmaq və başqa bu kimi işlərlə məşğul ola, insan nəfsi tənbəlliyə meyil etməyə, zəruri və qeyri-zərurilər görülməmiş qalmaya" (1).

Nəsirəddin Tusi Azərbaycanın dahi ensiklopediyaçı alimidir. Görkəmli dövlət xadimi, filosof, astronom, riyaziyyatçı, tarixçi, maliyyəçi və ilahiyyatçı kimi dünyada tanınır. Belə böyük alimə nəyi isə irad tutmaq qəbahət olardı. Fəqət Tusinin bəzi fikirləri ilə müasir zəmanəmizdə razılaşmaq çətindir. Bunu etiraf etməliyik. O, məşhur "Əxlaqi-Nasiri" əsərində arvad saxlamaqda ərin üç üsuldan istifadə etməsini məsləhət bilir: *zəhm, kəramət, baş qarışdırmaq.*

Tusi həmin üsulları özünün yaşayıb fəaliyyət göstərdiyi feodalizm dövrü (XIII əsr) üçün məqbul sanırdı. O zamanlarda ailə elə idarə olunurdu. Qadın bütövlükdə ərin tabeçiliyində idi, bir çox hüquqlardan məhrum idi.

Həmin vaxtdan 8 əsrə qədər bir vaxt keçir. "*Zəhm*" anlayışının izahatını verərkən Tusi göstərir ki, evliliyin ilk günündən gərək ər öz arvadının gözünün odunu ala. Yoxsa qadında dikbaşlıq yaranar, o, özbaşınalıq edər, hələ üstəlik ərinin zəifliyindən istifadə edib onu özünə tabe etməyə çalışar, öz əlində oyuncağa çevirər, bütün istəklərini yerinə yetirməyə məcbur edər.

Biz hüquqi dövlət şəraitində yaşayırıq, sivil dövlətdə fəaliyyət göstəririk. Ailə dövlətin himayəsindədir. Ər-arvadın hüquqları və vəzifələri Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə tənzimlənir. Ailə üzvlərinə münasibətdə zorakılıq halları, bir-birinin hüquqlarının pozulması halları pislənilir və qanunla cəzalandırılır. Ailə münasibətlərində onlar eyni hüquqlara malikdirlər.

Müasir dünyamızda ərin arvada xoşagəlməz münasibəti, onu özünün xidmətçisi gözündə görmək yolverilməzdir. Bizim Azərbaycan mühitində qəbul olunub ki, ailənin başçısı kişidir, qadın da onun yaxın köməkçisi, sirdaşı. Ailənin bütün problemlərinin onlar tərəfindən məsləhətləşmələr əsasında həll edilməsi tədqirolunandır. Ailədə liderliyə can atma, ailə başçısı olmaq uğrunda mübarizə ailə ixtilafları ilə nəticələnir. Bu və buna bənzər mübarizə və mübahisələrdən qaçmaq lazımdır.

Ərin və arvadın ailənin möhkəmliyi keşiyində durması tələb edir ki, onlar ailənin əmək həyatında birlikdə, yaxından iştirak etsinlər, əl-ələ verərək təsərrüfatı idarə etsinlər. daha K.D. Uşinskinin göstərdiyi kimi özlərini aparmasınlar. Diqqət yetirək: "Əşər ər yaşamaq üçün maddi vəsait əldə etmək məqsədi ilə işləyir, arvad isə onun əməyində iştirak etməyərək ancaq ərinin hesabına yaşayırsa, bu zaman ailə xoşbəxtliyi olmayacaqdır" (2, s. 63).

Bu, onu göstərir ki, ailə düzgün idarə olunmur.

K.D. Uşinski bu mənada aşağıdakı fikrində haqlıdır: "Əgər tərbiyə insanı xoşbəxt etmək istəyirsə, onu xoşbəxtlik üçün tərbiyə etməməli, bəlkə də, əmək həyatına hazırlamalıdır" (2, s. 65).

Böyük pedaqoq nə üçün bu qənaətə gəlir? Çünki xoşbəxtliyin mənbəyi əməkdədir. Ər və arvad, uşaqlar əməksevər olmasalar, həyatda çox əziyyət və çətinliklərlə üzləşə bilərlər, ailəni dolandırmağı bacarmazlar.

Yenə də K.D. Uşinskiyə müraciət edirik: "Öz qızları üçün işsiz həyat düzəltməyə çalışan analar azmı tapılar?" (2, s. 65)

Bu xüsusda A.S. Makarenkonun da fikirləri vardır. Diqqət yetirək: "Ana özünü öz uşaqlarının qulluqçusuna çevirmişdir - belə ailə quruluşu düzgün deyildir. ...Ana özünü qulluqçuya çevirdikdə qız, yaxud oğul ananın əməyi əsasında ağa kimi yaşayır, o biri tərəfdən ana öz şəxsi həyatının gözəlliyini itirir və ona görə həyatın bu dolğunluğunu itirmiş bir qadın kimi artıq tam dəyərli ana ola bilmir. Yalnız özü əsl dolğun insan həyatı, vətəndaş həyatı sürən ana

tərbiyə verən, nümunə göstərən, məhəbbət oyadan, valeh etdirən, özü haqqında təqlid etmək arzusu oyadan həqiqi ana ola bilər. Öz vəzifəsini uşaqlara sadə qulluqçuluq etməklə məhdudlaşdıran ana artıq tərbiyə verən ana deyil, öz uşaqlarının qulu olur" (3, s. 309-310).

Ailənin idarə olunması çox önəmli məsələdir. Ərinin vəzifə qayğılarından asılı olaraq (mühüm dövlət işlərində çalışmaq, vacib istehsalat sahəsinin rəhbəri olmaq və s. səbəbindən) ər-arvadın ümumi razılığı əsasında ailədə bir çox işləri qadın yerinə yetirməli olur. Bu xüsusda Ümummilli liderimiz Heydər Əliyev yazırdı: "...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib". Bu yerdə Volterin aşağıdakı sözləri yada düşür: "Kişi evin beyni, qadın isə ürəyidir".

Haqqında danışılan ailə nümunəvi ailə olub, nümunəvi ailə olaraq da qalır. Ulu öndərin və həyat yoldaşı Zərifə xanımın səyi, çox düzgün və mükəmməl tərbiyəsi sayəsində, Ümummilli liderimiz Heydər Əliyevin ailəyə rəhbərliyi və ailəni ustalıqla, böyük səriştə ilə idarə etməsi nəticəsində İlham Əliyev kimi hərtərəfli və ahəngdar inkişaf etmiş böyük şəxsiyyət yetişib. Ölkə Prezidenti səviyyəsinə yüksəlib. Bir neçə dildə sərbəst danışır, uğurlu daxili və xarici siyasət yeridir. Ölkədə sabit şərait yaradıb, dövləti çox yaxşı idarə edir.

Mütəfəkkirlər ailənin uğurla idarə olunmasına dair gözəl, ibrətamiz fikirlər irəli sürmüşlər Onları yada salaq:

* Kişinin səadəti "mən belə istəyirəm" deyə bilməsindədir. Qadının səadəti "O belə istəyir"də (*Zərdüşt peyğəmbər*)

* Qadınların ən yaxşısı səni sevindirən, əmr edərkən əmrinə itaət edən, sən evdə olmayan vaxt sənin şərəfini, namusunu qoruyan qadındır (*Məhəmməd peyğəmbər*)

*Qadınların ən yaxşısı: nəcib, mömin, uşaqlarına mehriban, ərinin malına və sərvətinə ürək yandırandır (*Məhəmməd peyğəmbər*)

*Bütün dünyanı gəzib səadət axtardım, – tapmayıb, kor-peşman evə döndüm. Sən demə o, evdə məni gözləyirmiş (*Əbu Turxan)*

*Bərabərlik iddiası ailəni sarsıdır *(Əbu Turxan)*

* Biz iki nəfər olmalıyıq ki, həqiqəti kəşf edək: biri – onu bəyan etmək, digəri – onu dərk etmək üçün (*Cübran)*

**Bir-birini sevən ər-arvad komada da xoşbəxt olar* (atalar sözü)

**İnsan nə qədər də qəribədir!?O var-dövlət qazanmaq üçün sağlamlığını itirir, sonra da sağlamlığını geri gətirmək üçün sərvətindən keçir. O hazırkı vaxtında gələcəyin dərdini çəkir, amma gələcəkdə isə keçmiş vaxtları özləyir. O elə yaşayır ki sanki heç ölməyəcək, amma elə şəkildə ölür ki sanki heç anadan olmamış* (Əli bin Əbu Talib)

*Doğma ev, doğma ev, necə şirinsən,
Dolanım başına, dönüm başına*!* (*Xəlil Rza Ulutürk*)
*Ailə həyatının gözəlliyi kimi heç bir şey yoxdur (*Oscar Vayld*)
**Ən yaxşı dövlət nədir? Bizə özümüzü idarə etməmizi öyrədəndir* (İohann Volfqanq Höte)
**Yaxşı bir arvadınmı olmasını istəyirsən? Elə isə tam bir ər ol!* (İohann Volfqanq Höte)

*Q*adın hökmranlıq edir, amma idarə etmir* (D. Jirarden)

**Qayıq iki avarın eyni anda hərəkət etməsi ilə üzür, avarların hərəkəti bir-birinə uyğun gəlməsə, dalğalar qayığı aşırar. Evlilik də qayıq kimidir* (E. Levi)

* Evlənmək öz hüquqlarımızı yarıbayarı azaltmaq, vəzifələrimizi isə ikiqat artırmaq deməkdir *(Artur Şopenhauer)*

Ailənin idarə olunması dedikdə, bu, təkcə ər-arvad münasibətlərini nəzərdə tutmur. Başlıca məsələ həm də uşaqların idarə edilməsidir. Mənbələrdə, adətən uşaqların tərbiyə olunmasının səmərəli yollarından söz açılır. “Uşaqların idarə olunması” bir növ yeni ifadə kimi səslənir. Bəli, bu məsələyə də diqqət yetirilməlidir. Onların fəaliyyəti, həyatı idarə olunmasa, bu fəaliyyətə ata-anaların pedaqoji rəhbərliyi həyata keçirilməsə, bir sıra hallarda uşaqlarda deviant davranış meydana gəlir.

Uşaqlar elə tərbiyə almalıdırlar ki, onlarda ata-analarının haqqını yerinə yetirmək, onların razılığını qazanmaq mümkün olsun. Nəsirəddin Tusinin bu barədə gözəl fikirləri vardır: “Ata-ana haqqını yerinə yetirmək, onların hayına qalmaq, dərdinə əlac etməkdən daha artıq bir fəzilət ola bilməz. ...Ata-ana...bütün ömürləri boyu övladlarının böyüyüb əlləri bir yerə çatmalarını və onlara əl tutmalarını böyük arzu ilə gözləyirlər. Ata-ananın haqqını üç şeylə yerinə yetirmək olar: Birinci - onları ürəkdən sevmək, sözdə və işdə onların arzularına əməl etmək. ...Onlara qarşı Allahın xoşuna gəlməyən heç bir hərəkətə yol verməmək;

İkinci - özləri istəməmiş azuqə və zümarda onlara kömək etməli...

Üçüncü - istər gizlin, istərsə açıqda ...onların xeyirxahı olmalıdır” (1, s. 167).

Ailənin mənəvi və psixoloji mühiti yaxşıdırsa, deməli, ailə yaxşı idarə olunur, ər-arvad idarəetmə məsələlərində yekdildirlər, bir-birini eşidirlər, bir-birinə nəyisə həvalə edirlər. Eyni zamanda uşaqların tərbiyəsi qaydasındadır, oğlan tərbiyəsinin, qız tərbiyəsinin səciyyəvi xüsusiyyətləri də nəzərə alınır.

**Məqalənin aktuallığı.** Respublikamızda ailənin idarə olunması probleminə aid tədqiqatlar lazımi səviyyədə aparılmadığından məqalə aktuallığı ilə seçilir.

**Məqalənin elmi yeniliyi.** Ailə pedaqogikasının mühüm problemi kimi ailənin idarə olunması diqqət mərkəzinə gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorant və dissertantlar, magistrantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1980.
2. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
3. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı: “Azərbaycan məltəbi” jurnalının nəşri, 1950.